EURO2020

## Futbol üzrə XVI Avropa çempionatı



# TƏCRÜBƏ SÖZÜNÜ DEDİ



**D qrupu**

**Xorvatiya - Şotlandiya - 3:1**
**Qollar:** Vlasiç, 17 (1:0), Makqreqor, 42 (1:1), Modriç, 62 (2:1), Perisiç, 77 (3:1)
**Baş hakim:** Fernando Rapallini (Argentina)
*Qlazqo. "Hempden Park" stadionu*

**D qrupunun ən maraqlı matçı Xorvatiya və Şotlandiya yığmaları arasında keçirildi. Qarşılaşmada sürət, həyəcan, gərgin mübarizə - nə desəniz vardı. Çünki növbəti mərhələyə yüksəlmək üçün hər iki komandaya mütləq qələbə lazım idi. Yekunda bu dəfə də təcrübə öz sözünü dedi.**

*Ardı 10-cu səh.*






# TƏCRÜBƏ SÖZÜNÜ DEDİ

Əvvəli 1-ci səh.

Xorvatlar oyuna daha sürətli başladılar. Meydançanın mərkəzində pressinq tətbiq edərək şotlandlara boş zona buraxmadılar. Nəticədə itirilən hər top Şotlandiya seçməsinin qapısı qarşısında qol epizodları ilə yadda qaldı. Belə epizodlardan birində Vlaşiç vurduğu qolla Xorvatiya yığmasını hesabda irəli çıxardı.

Qoldan sonra Şotlandiya millisinin baş məşqçisi oyun planında dəyişikliyə getdi. Müdafiədən oyun qurmaq yerinə uzun ötürmələrlə meydançanın rəqibə aid hissəsində cinahlardan hücuma keçid taktikası seçdi. Eyni zamanda itirilən hər topun tez bir zamanda komandaya qazandırılması xorvatların hücum kəsərini zəiflətdi. Nəticədə Makqreqor vurduğu qolla hesabda tarazlığı bərpa etdi.

Fasilədən sonra şotlandlarda fiziki yorğunluq hiss olunmağa başladı. Elə buna görə idi ki, hər itirilən topdan sonra boş zonalarda çoxala bilmədilər. Nəticədə daha təcrübəli oyunçulardan qurulan Xorvatiya yığması Modriç və Perişiçin qolları sayəsində matçdan qalib ayrılaraq növbəti mərhələyə yüksəldi.

Xorvatiya yığması Avropa çempionatına seçmə mərhələnin E qrupunun lideri kimi yollanıb. Seçmə mərhələdə 17 qol vuran komanda qapısında 7 top görüb. Xorvatların ən məhsuldar oyunçusu Bruno Petkoviçdir - 4 qol. O, ümumən E qrupunun bombardiri oldu. İvan Perişiçlə Nikola Vlaşiç 3, Luka Modriç 2 dəfə fərqləndisə, 3 futbolçu adını 1 dəfə tabloya yazdıra bilib.

Xorvatiya müstəqillik dövründə 5 dəfə Avropa çempionatında iştirak edib. Yığma yalnız 2000-ci il qitə birinciliyində oynamaq hüququ qazanmayıb. Komandanın ən yaxşı nəticəsi dörddəbir finala kimi yüksəlməkdi. Milli 1996-cı və 2008-ci illərdə buna nail olub. 2016-cı il çempionatında komanda 1/8 finalda mübarizəni dayandırıb.

❖ ❖ ❖

D qrupunun digər matçında isə Çexiya və İngiltərə yığmaları üz-üzə gəldilər. Düzdür, ilk hissədə mübarizə əsasən meydançanın mərkəzində getsə də, ingilislərin qurduqları hücumlar daha kəsərli idi. Oyunun əvvəlindən üstünlüyü ələ keçirən İngiltərə yığması meydançanın rəqibə aid hissəsində pressinq tətbiq edərək çexlərin oyun qurmasına mane olurdu. Çexiya bu matçda yaranan əks-hücumlarda müdafiənin arxasına atılan toplarla qol epizodu yaratmağa çalışırdı.

Matçın əvvəlində İngiltərə millisinin ardıcıl qurduğu hücumlar öz nəticəsini verdi. 12-ci dəqiqədə Sterlinq vurduğu qolla görüşdə hesabı açdı. Qoldan sonra tədricən ötürmələrə üstünlük verən ingilislər oyunun tempini istədikləri kimi saxladılar. Görüşün qalan dəqiqələrində hər iki komandanın qol vurmaq üçün şansları olsa da, onlardan yararlana bilmədilər.

Qeyd edək ki, İngiltərə yığması Avropa çempionatına seçmə mərhələnin A qrupunun lideri kimi yollanıb. Britaniyalılar Çexiya, Kosovo, Bolqarıstan və Monteneqro ilə mübarizədə 8 oyunun 7-də qalib gəlib, 1 matçda məğlub olub. Komanda yeganə məğlubiyyətini səfərdə Çexiya ilə oyunda alıb. Beləliklə, 8 matçda 21 xal toplayan ingilislər qrup lideri olub. Komanda ən yaxın izləyicisi Çexiyanı 6 xal qabaqlayıb.

İngiltərə həmçinin seçmə mərhələnin ən məhsuldar komandalarından idi. 37 qol vuran yığma qapısında 6 top görüb. İngilislərin ən məhsuldar oyunçusu 12 qolla Harri Keyn olub. O, ümumən seçmə mərhələnin bombardiri adını qazanıb.

İngiltərə "Avro-2020"nin evsahiblərindəndir. Sayca 10-cu dəfə Avropa çempionatında yarışan futbolun yaradıcıları indiyə qədər qitə birincisi olmağı bacarmayıb. Yığma iki dəfə yarımfinala qədər irəliləyə bilib. Bunlar ötən əsrdə - 1968-ci və 1996-cı illərin çempionatlarında baş verib. İngilislər 2016-cı ildə dörddəbir finalda mübarizəni dayandırıb.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*



**Çexiya - İngiltərə - 0:1**
**Qol:** Sterlinq, 12
**Baş hakim:** Artur Diaş (Portuqaliya)
*London. "Uembli" stadionu*



**B QRUPU**

| | Komandalar | O | Q | H | M | TF | X |
|---|---|---|---|---|---|---|---|
| 1 | İngiltərə | 3 | 2 | 1 | 0 | 2-0 | 7 |
| 2 | Xorvatiya | 3 | 1 | 1 | 1 | 4-3 | 4 |
| 3 | Çexiya | 3 | 1 | 1 | 1 | 3-2 | 4 |
| 4 | Şotlandiya | 3 | 0 | 2 | 1 | 1-5 | 1 |

## Türkiyə 9,25 milyon avro alacaq

"Avro-2020"nin qrup mərhələsində iştiraka, oyunlarda qələbə və heç-heçəyə görə komandaların əldə edəcəyi gəlirin miqdarı açıqlanıb. Qrup mərhələsində çıxış edən yığmaların hər biri 9,25 milyon avro qazanacaq.

UEFA komandalara qələbəyə görə 1,5 milyon avro, heç-heçəyə görə isə 750 min avro vəsait ödəyəcək. Qrup mərhələsinin hər 3 oyununda uduzan Türkiyə millisi isə iştiraka görə, 9,25 milyon avro əldə edəcək.



## Möhtəşəm seriya

**İtaliya millisi "Avro-2020"nin qrup mərhələsində bütün qarşılaşmaları qalib başa vuraraq bununla məğlubiyyətsiz oyunlar seriyasını 30-a çatdırıb (25 qələbə, 5 heç-heçə).**

Sonuncu dəfə Roberto Mançininin futbolçuları 2018-ci ilin sentyabrında, Millətlər Liqası turnirində Portuqaliyaya uduzub (0:1). Son dəfə İtaliya millisinin 30 məğlubiyyətsiz oyunlar seriyası 1935-39-cu illərdə olub. Bundan başqa, "skvadra adzurra" düz 11 oyundur ki, qol buraxmır. Uzatma dəqiqələri də nəzərə alınmaqla bu, 1058 dəqiqə deməkdir.



Qeyd edək ki, A qrupunda bütün matçlarda qalib gələn italyanlar 1/8 finala vəsiqə qazanıb. Onlar yarışın əsas favoritlərindən sayılır.

## Yarımfinal və final oyunlarına azarkeş sayı açıqlandı

**Futbol üzrə "Avro-2020"nin yarımfinal və final oyunlarında iştirak edəcək azarkeş sayı açıqlanıb.**

İngiltərənin paytaxtı Londonda "Uembli" stadionundakı matçlara 60 min azarkeş qatılacaq. Bu arenanın tamaşaçı tutumu 90 mindir.

Qeyd edək ki, Avropa çempionatının yarımfinal görüşləri iyulun 6-7-də, final isə iyulun 11-də təşkil olunacaq.

*E qrupu*
**Slovakiya - İspaniya - 0:5**
**Qollar:** Dubravka, 30-avtoqol, Emerik Lyaport, 45+3, Pablo Sarabiya, 56, Ferran Torres, 67, Kuçka, 71-avtoqol
**Reallaşdırılmayan penalti:** Alvaro Morata, 12 (İspaniya) - qapıçı
**Baş hakim:** Byörn Kuypers (Niderland)
*Sevilya. "Kartuya" stadionu*

**İsveç - Polşa - 3:2**
**Qollar:** Forsberq, 2 (1:0), 59 (2:0), Levandovski, 61 (2:1), Levandovski, 84 (2:2), Klaesson, 90+4 (3:2)
**Baş hakim:** Maykl Oliver (İngiltərə)
*Sankt-Peterburq. "Sankt-Peterburq" stadionu*





## Modriçdən yeni rekord

**Xorvatiya millisinin kapitanı Luka Modriç maraqlı göstəriciyə imza atıb. O, ölkəsinin Avropa çempionatları tarixində qol vuran ən yaşlı futbolçusu olub. Modriç 35 yaş 286 günündə Şotlandiya ilə "Avro-2020"nin matçında (3:1) bir dəfə fərqlənib.**

Bununla yanaşı, Modriç həm də Xorvatiya millisinin Avropa çempionatlarında qol vuran ən gənc futbolçusudur. O, "Avro-2008"də 22 yaş 273 günlüyündə Avstriyaya qarşı matçda rəqib qapısına yol tapıb.

## İngilislərdən antirekord

**İngiltərə millisi antirekordla Avropa çempionatları tarixinə düşüb. Britaniyalılar 3 matçda cəmi 2 qolla qrup qalibi olub. İndiyədək heç vaxt qrupda 1-ci yeri tutan komanda bu qədər az fərqlənməyib.**

Qeyd edək ki, qapısından top buraxmayan Qaret Sautgeytin komandası Xorvatiya və Çexiyaya eyni - 1:0 hesabı ilə qalib gəlib, Şotlandiya ilə qolsuz heç-heçə edib.

## UEFA Baş nazirə qarşı çıxdı

**UEFA İtaliyanın Baş naziri Mario Draginin "Avro-2020"nin final matçının Londonda keçirilməsinə qarşı çıxmasına mənfi cavab verib.**

Qurum həlledici matçın yerini dəyişmək fikrində olmadığını və qarşılaşmanın Londonda təşkil olunacağını açıqlayıb. Dragi isə İngiltərədə pandemiyanın geniş yayılması səbəbindən final matçının bu ölkədə təşkil edilməsinin düzgün olmadığını demişdi.

